# Müstəqilliyin çətin yolu








## Şəhidlər xiyabanına ziyarətə gələnlər vətəndaşlıq borclarını yerinə yetirirdilər

28 il sonra yanvarın 20-də Şəhidlər xiyabanına, qəhrəman Vətən övladlarının xatirəsinə ehtiramını bildirmək üçün gələnlərin yenə də sayı-hesabı yox idi. Səhər tezdən Bakının istər sakinləri, istərsə xarici ölkələrin burada fəaliyyət göstərən diplomatik korpusunun təmsilçiləri, eləcə də ölkəmizin hər yerindən, milliyyətindən asılı olmayaraq, paytaxta gəlmiş insanlar Şəhidlər xiyabanında qəhrəmanların xatirəsini yad edir, öz vətəndaşlıq borclarını yerinə yetirirdilər.

İyirmi səkkiz il əvvəl yanvarın 19-dan 20-nə keçən gecə döyüş meydanını xatırladan Bakıda ölçüyəgəlməz dağıntılar törədildi, televiziyanın enerji bloku partladıldı, inzibati və yaşayış binalarına, nəqliyyat vasitələrinə ciddi ziyan vuruldu. İnsanlıq simasını itirmiş hərbi canilər yaralıları çıxaran təcili tibbi yardım maşınlarını atəşə tutur, həkimləri belə qətlə yetirirdilər.

O qanlı terror bəşəriyyətə, insanlığa qarşı ən böyük cinayətlərdən biridir. Bununla belə, 20 Yanvar qırğınını nə qədər böyük ağrı hissi ilə xatırlasaq da, xalqımızın azadlıq uğrunda mübarizə əzminin yenilməzliyindən böyük qürur hissi də keçiririk. Çünki 20 Yanvar hadisələri ayrı-ayrı insanların deyil, bütöv bir xalqın taleyidir. Azərbaycanın müstəqilliyini bərpa etməsi şəhidlərin qanının yerdə qalmadığını göstərdi. Ümidsiz qaldığımız o ağır günlərdə imperiyanın paytaxtından eşidilən bir səs qəlblərdə azadlıq eşqini coşdurdu, işıqlı sabahımıza ümidlərimizi artırdı. Bu, ulu öndər Heydər Əliyevin səsi idi. Səhhətindəki problemlərə, ona qarşı təhlükələrə baxmayaraq, Heydər Əliyev bir daha xalqının imdadına yetişdi, səsinə səs verdi.

Ulu öndərin siyasətini uğurla davam etdirən Prezident İlham Əliyev də şəhid ailələrinin sosial müdafiəsini gücləndirmək üçün sərəncam və fərmanlar imzaladı, əlillərin reabilitasiyası üçün respublikada yeni sağlamlıq mərkəzləri yaradıldı. Ötən illər ərzində 20 Yanvar əlilləri və şəhid ailələri mənzillə təmin edildilər. Əlillərə minik avtomobilləri verildi, şəhid ailələrinə Prezident təqaüdü təyin olundu və s.

Azərbaycan Prezidentinin 2014-cü il 18 mart tarixli Sərəncamı ilə 20 Yanvar əlilləri və şəhidlərinin də respublikanın ali və orta ixtisas məktəblərində ödənişli əsaslarla oxuyan uşaqları təhsil haqqından azad olundular.

Xalqımızın müqəddəs ziyarətgahı olan Şəhidlər xiyabanı daim ziyarət olunub, şəhid məzarlarının üzərini al qərənfillər bəzəyib, "Əbədi məşəl" abidəsində Odlar yurdunun rəmzi olan alov şölələnib. Bütün bunlar barədə düşünərkən ümummilli lider Heydər Əliyevin bu fikirləri bir daha yada düşür: "20 Yanvar faciəsində həlak olanlar xalq qəhrəmanlarıdır, onlar millətimizin qəhrəmanlarıdır. Onların həlak olması bizim üçün, xalqımız üçün böyük itkidir. Ancaq eyni zamanda onların şəhid olması xalqımızın qəhrəmanlıq rəmzidir. O gecə tökülən qanlar Azərbaycanın müstəqilliyini nümayiş etdirən milli bayrağımızın üstündəki qandır."

Ayrı-ayrı əmək kollektivlərini ziyarətə gətirən, əlbəttə, vəzifə borcu deyil, ilk növbədə, Vətənin azadlığı uğrunda şəhid olanların heç zaman unudulmayacağını sonrakı nəsillərə göstərmək məqsədi daşıyır. Şəhidlər xiyabanını ziyarətə gələnlərin arasında ağsaqqal da var, ağbirçək də, uşaq da, böyük də, əlil də... 28 yaş gəncliyin odlu-alovlu, hisslərin və duyğuların baş alıb getdiyi dövrdür. Nə yaxşı ki, bu yaşda olanlarda vətənpərvərlik daha çox hiss olunur.

Xiyabana tələsən hər kəsin baxışlarında qəm-kədərlə yanaşı, o gün bir əzmkarlıq da hiss olunurdu. Bu dəfə də ziyarətçilərin arasında gənclərin daha çoxluq təşkil etməsi heç də təsadüfi deyildi. Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının magistri Həbib Misirov tələbə-gənclərdən Rəşad, Nəriman, Kəmalə, Pərvanə Əsədovaların, Emin Rəcəbli, Rəşad Təhməzli, Ayxan İmanov, Jalə Nəcəfova, Ülkər Həmidova və Zaur Cavadovun fikirlərini ifadə edərək bildirdi ki, Azərbaycan gəncliyi öz qəhrəman şəhidləri ilə fəxr edir: "Onların uyuduqları müqəddəs məkanı - Şəhidlər xiyabanını ziyarət etmək bizim borcumuzdur. 20 Yanvar hadisələri haqqında kitablardan, mətbuatdan oxumuş, şahidlərin dilindən eşitmişəm. 20 Yanvar Azərbaycanı müstəqilliyə aparan yolun başlanğıcı olub. Ölkədə milli azadlıq hərəkatını boğmaq məqsədilə sovet rəhbərliyi tərəfindən Bakıya yeridilən ordu dinc əhalini amansızcasına atəşə tutub. Yüzlərlə insan şəhid olub və yaralanıb. Sovet ordusunun törətdiyi vəhşiliklər insanlıqdan çox-çox uzaq, namərd bir addım idi. Qanlı 20 Yanvar gecəsi dostumuzu və düşmənimizi bizə yaxından tanıtdırdı".

Bakı şəhəri Nərimanov rayonundakı R.Nəsrəddinov adına 39 nömrəli tam orta məktəbin müəllim və şagird kollektivi də ziyarətçilərin sırasında idi. Məktəbin direktoru, Azərbaycanın Milli Qəhrəmanı Şahlar Şükürovun bacısı Tahirə Şükürova dedi ki, atamı da 20 yanvar tarixində itirdik. Hər dəfə xiyabanı ziyarət edəndə eşidirdik ki, bu müqəddəs günə möhkəm bağlıdır. Axı, şəhidlərin şərəfinə salınan xiyaban uşaqdan-böyüyə hər birimiz üçün müqəddəs məkandır: "Ona görə də illər keçdikcə bu xiyaban nəsillərimizin ziyarətgahına çevriləcək. O qanlı və dəhşətli gecədən 28 il keçdikdən sonra da xalqımızın Şəhidlər xiyabanını mütəşəkkil qaydada ziyarət etməsi bunu təsdiqləyir. Şagirdlərimizə Şəhidlər xiyabanı haqqında məlumat verməliyik".

Həmsöhbətimiz, məktəbin müəllimlərindən biri, şəhid bacısı Sədaqət Məlikova isə həmkarları Sevinc Paşayeva ilə Təranə Abdullayevanın fikirlərini ümumiləşdirərək belə ifadə etdi: "20 Yanvar xalqımızın tarixində ən şərəfli səhifələrdən biridir. Əliyalın insanlar məhz o gün topların, tankların qabağına çıxmaqla öz mərdliyini, cəsarətini, imperiyaya qarşı mübarizliyini bir daha sübut etdi. 20 Yanvar xalqımızın müstəqillik savaşında mühüm əhəmiyyətə malik bir gündür. Azadlıq aşiqləri o zaman sübut etdi ki, bizi müstəqillik yolundan heç bir imperiya, hansısa qüvvə döndərə bilməz. Bugünkü müstəqilliyimizə görə biz ilk növbədə 20 Yanvar şəhidlərinə borcluyuq".

Nizami rayonundakı Kamil Əyyubov adına 12 saylı tam orta məktəbin dil-ədəbiyyat müəllimi İltimas İsmayılova da o dəhşətli gecədən sonra xalqımızın azadlıq arzularının çiçək açdığını və ulu öndərin millətimizin yanında olduğunu bildirdi: "Qanlı Yanvar faciəsindən bir gün sonra ümummilli lider Heydər Əliyev həyatını təhlükə altına qoyaraq Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gəldi, bəyanat verərək xalqımızın kədərini bölüşdü və kommunist rejiminin respublikamızda həyata keçirdiyi qanlı aksiyanı qətiyyətlə ifşa etdi. Ulu öndər Heydər Əliyev bu bəyanatı ilə əslində, 20 Yanvar hadisələrinə cəsarətlə siyasi qiymət verdi. O, SSRİ və respublika rəhbərliyinin Azərbaycan xalqına qarşı xəyanətkar mövqeyini pislədi, totalitar rejimin törətdiyi 20 Yanvar faciəsinin təkcə azərbaycanlılara deyil, bəşəriyyətə, humanizmə, insanlığa qarşı həyata keçirilmiş dəhşətli bir cinayət olduğunu bildirdi".

Yalnız ümummilli lider Heydər Əliyevin ölkəyə rəhbərliyə qayıdışından sonra - 1994-cü ildə 20 Yanvar hadisələrinə dövlət səviyyəsində siyasi-hüquqi qiymət verildi və bu cinayəti törədənlərin adları ictimaiyyətə çatdırıldı. Ulu öndərin fərman və sərəncamları ilə Şəhidlər xiyabanı yenidən quruldu, burada möhtəşəm "Əbədi məşəl" abidə-kompleksi yaradıldı, "20 Yanvar şəhidi" fəxri adı təsis edildi, şəhid ailələrinin, 20 Yanvar hadisələrində sağlamlığını itirən əlillərin sosial müdafiəsi, pensiya təminatı gücləndirildi.

20 Yanvar xalqımızın qan yaddaşına hüzn və kədər, qürur və qəhrəmanlıq səhifəsi kimi yazılıb. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə şəhidlərimiz qanları ilə Azərbaycanın yeni tarixini yazdılar. Bu, qəhrəmanlıq, mərdlik, hünər və milli məfkurənin yüksəliş tarixidir.

Köhnə Dağüstü parkın yerində öz əzəməti ilə ucalan və uzaqlardan diqqəti çəkən memorial abidə bu il də uşaqlı-böyüklü hər kəsin baş əydiyi məbədə çevrildi. Buradan neft Bakısı ilə müstəqillik illərində gözəlləşən, yeniləşən, məşhurlaşan, iyirmi birinci yüzilliyin inkişaf etmiş paytaxtı kimi tanınan, bir çox beynəlxalq tədbirlərə evsahibliyini layiqincə yerinə yetirən, tolerantlıq nümunəsi kimi tanınan Bakı bir az da geniş panoramada görünürdü...

*Məhəmməd NƏRİMANOĞLU,*
*Rəhman SALMANLI,*
*Ağaəli MƏMMƏDOV (foto),*
*"Azərbaycan"*